# Azərbaycan sülhməramlıları:
# qlobal təhlükəsizliyə sadiqlik örnəyi

***Əsgər uşağı qucağına götürüb tikanlı məftillərdən qoruyaraq ehtiyatla yoldaşına ötürür: "Yavaş götür", "Əllərini gözlə", "Ehtiyatlı ol". Beləcə, hərbçilər azyaşlıları tikanlı məftillərin üstündən bir-birinə ötürərək, təhlükəsiz yerdə onları gözləyən valideyinlərinə qovuşdururlar.***

**Başqa bir epizod:** hərbçilər balacalara su paylayırlar. İstidən dil-dodağı quruyan yüzlərlə uşaq hərbçilərə xilaskar kimi baxır.

**Daha bir mənzərə:** Gənc əsgər azyaşlı uşaqların əhatəsindədir. Onların hər biri əsgəri qucaqlamaq istəyir, biri digərinin önünə keçir. Cüssəli, mehriban simalı gənc hərbçi qollarını geniş açaraq sanki uşaqların hamısını eyni anda bağrına basır. Balacalardan biri onun boynunu qucaqlayır, digəri üzündən öpür, başqa birisi əsgər papağını başına qoymağa çalışır. Beləcə növbə ilə əhatəsindəki bütün uşaqlar bu yaraşıqlı, baxışları ilə mərhəmət saçan gənc əsgərin boynuna sarılıb üzündən öpürlər.

Bu epizodlar hansısa filimdən fraqment deyil. Hansısa bir əsərin motivləri də deyil. Bu təsvir edilənlər Əfqanıstanda Kabil Beynəlxalq Hava Limanında xidməti vəzifələrini yerinə yetirən Azərbaycan və Türkiyə ordusunun sülhməramlılarının portretidir. Əsgərlərimizin mərhəmətini, insanlığını əks etdirən həmin görüntülər qısa zamanda sosial şəbəkələrdə, dünya mediasında gündəmə çevrildi. Adətən, balaca uşaqlar əsgərlərdən çəkinər, silahlılardan qorxarlar. Amma əfqan uşaqları Azərbaycan və Türkiyə sülhməramlılarının şəfqətinin, sevgisinin işığına toplaşdılar. Onları öz doğmaları, əzizləri, valideynləri kimi sevdilər...

Əfqanıstan İslam Respublikasının Kabil Beynəlxalq Hava Limanında xidməti vəzifəsini yerinə yetirən Türkiyə əsgər və zabitləri, həmçinin 120 nəfərdən ibarət Azərbaycan sülhməramlı kontingeni hərbi missiyasını şərəflə başa vurdu, tam heyətdə bu ölkədən çıxarılaraq, əvvəlcə qardaş Türkiyənin paytaxtına yerləşdirildi. Onlara məxsus silah, hərbi əmlak da hava yolu ilə Ankara şəhərinə daşındı. Sülhməramlılarımız artıq Vətənə dönüblər. Qarşıya qoyulan tapşırıqları Türk Silahlı Qüvvələri ilə birlikdə müvəffəqiyyətlə yerinə yetirən Azərbaycan sülhməramlıları Əfqanıstanda təkcə təhlükəsizliyi təmin etmədilər. Onlar bu ölkədə xidməti vəzifələrini yüksək peşəkarlıqla icra etməklə yanaşı, bütün dünyaya sülhməramlı obrazının əsl simasını təqdim etdilər. Türkiyə və Azərbaycan sülhməramlılarının Əfqanıstanda yüksək peşəkarlıqla xidmətləri ölkələrimizin qlobal təhlükəsizliyə sadiqliyinin təcəssümü, daha bir sübutudur.

Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi regionda və müxtəlif dövlətlərin maraqlarının kəsişmə məkanında yerləşən Azərbaycan



beynəlxalq hərbi əlaqələrini xarici dövlətlərin hərbi qurumları və beynəlxalq təşkilatlarla qarşılıqlı maraqlar çərçivəsində reallaşdırır. Bu əməkdaşlıqda əsas məqsəd ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının təmin edilməsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, xarici dövlətlərin hərbi qurumları və beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrin möhkəmləndirilməsidir. Beynəlxalq aləmdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi-siyasi mövqeyinin gücləndirilməsi, beynəlxalq və regional təhlükəsizliyə töhfə verilməsi hərbi əməkdaşlığın hədəfləri sırasındadır. 1997-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərkibində yaradılmış Azərbaycan sülhməramlı bölməsinin fəaliyyəti beynəlxalq hərbi əməkdaşlığın əsas istiqamətlərindən biri, bariz nümunəsidir.

Güclü ordunun inkişafının əsas xüsusiyyətlərindən biri də beynəlxalq əməkdaşlıq və qazanılmış təcrübədən qarşılıqlı istifadədir. Azərbaycan Ordusunun döyüş hazırlığında, müasir hərbi texnika və silahlarla təchizatında hərbi əməkdaşlıq münasibətləri mühüm əhəmiyyət kəsb edir. Ölkəmizin beynəlxalq hərbi əlaqələrində NATO bloku, Türkiyə, Rusiya, Pakistan, İsrail dövlətləri ilə əməkdaşlıq xüsusi çəkiyə malikdir.

Azərbaycanın NATO ilə əməkdaşlığı dövlətimizin xarici siyasət strategiyasında, beynəlxalq hərbi münasibətlərində mühüm yer tutur. Respublikamızın 1994-cü ildə NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" (SNT) Proqramına, 1996-cı ildə Planlaşdırma və Analiz Prosesinə və 2005-ci ildə Fərdi Tərəfdaşlıq Əməliyyat Planı Proqramına qoşulması ilə qabaqcıl təcrübənin öyrənilməsi, NATO-ya üzv və tərəfdaş ölkələrin müvafiq qurumları ilə səmərəli əməkdaşlıq münasibətlərinin qurulması istiqamətində geniş imkanlar yarandı.

Silahlı qüvvələr üzərində tam demokratik nəzarətin yaradılması, müdafiə tədbirlərinin formalaşdırılması, o cümlədən, NATO-nun norma və standartlarına uyğun olaraq bütün silahlı qüvvələrin təşkilati strukturunun yaradılması Azərbaycanın NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının əsas sahələridir. 2004-cü ildə Prezident İlham Əliyevin NATO-nun İstanbul zirvə toplantısında iştirakı, sammit çərçivəsində aparılan müzakirə və danışıqlar ölkəmizi Şimali Atlantika İttifaqı ilə tərəfdaşlıq münasibətlərində keyfiyyətcə yeni mərhələyə daşıdı. "Kooperativ Best Effort–2004" səhra təlimlərinin, 2005-ci il iyunun 23-də NATO-nun "İnteqrasiya edilmiş sərhəd idarəçiliyinin islahatı: Avroatlantik Tərəfdaşlıq Şurası çərçivəsində birgə sərhəd təhlükəsizliyi standartlarının yaradılması" mövzusunda seminarın Bakıda keçirilməsi təşkilatın Azərbaycanla əməkdaşlığa verdiyi əhəmiyyətin sübutudur.

Azərbaycan NATO ilə əməkdaşlıq çərçivəsində beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar olunmasına da töhfə verir. Bu istiqamətdə, sülhməramlı əməliyyatlarda azərbaycanlı hərbçilərin peşəkarlığı xüsusilə qeyd edilməlidir. Azərbaycan Ordusunun sülhməramlı kontingenti 1999-cu ildən etibarən sülhməramlı əməliyyatlarda iştirak edir. Rəsmi faktlara istinadən qeyd edək ki, 1999-cu ildən 2018-ci ilə qədər müxtəlif regionlarda keçirilən sülhməramlı əməliyyatlara Azərbaycan Ordusunun 3000-dən artıq hərbi qulluqçusu qatılıb.

Ölkəmizin beynəlxalq sülhyaratma əməliyyatlarında iştirakı Kosovoda hərbi münaqişənin yarandığı dövrdən başlayıb və Azərbaycan ilk dəfə olaraq sülhməramlı heyətini 1999-cu ildə həmin bölgəyə göndərib. Sonrakı dövrlərdə isə İraqda beynəlxalq təhlükəsizlik qüvvələrinin tərkibinə daxil olub və yenə də burada sabitliyin, əmin-amanlığın təmin edilməsinə dəyərli töhfələr verib.

Azərbaycan Ordusunun sülhməramlı taqımı Əfqanıstan İslam Respublikasında 2002-ci ildən Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (ISAF) tərkibində fəaliyyət göstərməyə başlayıb. İlkin mərhələdə 22 nəfərlik kontingent ilə xidmətə başlayan sülhməramlılarımızın sayı 2008-ci ildə 40 nəfərə çatdırılıb. 2009-cu il oktyabrın 2-də Azərbaycan Milli Məclisi Əfqanıstandakı sülhməramlı kontingentin artırılması barədə qərar qəbul edib. 2009-cu ildən Azərbaycan Ordusunun 90 nəfərlik sülhməramlı kontingenti Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri əməliyyatlarında Türk taboru tərkibində fəaliyyət göstərib. Bölüyün şəxsi heyəti Kabil şəhərində yerləşən televiziya qülləsini, ISAF-ın mərkəzi silah-sursat anbarının təhlükəsizliyini təmin edib və patrul xidmətini həyata keçirib.



2010-cu ildə Azərbaycan NATO-nun Əfqanıstanda keçirdiyi ISAF üzrə əməliyyatlarında Azərbaycan Respublikası Sülhməramlı Qüvvələrinin töhfəsinin artırılması məqsədilə missiyaya əlavə olaraq 2 hərbi həkim və 2-si mühəndis-istehkam ixtisası üzrə olmaqla, 4 zabit göndərib və sülhməramlı kontingentin sayı 94 nəfərə çatdırılıb.

2015-ci il yanvarın 1-dən etibarən, Azərbaycan sülhməramlıları Əfqanıstanda NATO-nun başçılığı ilə həyata keçirilən "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında 6 aylıq rotasiya planına uyğun olaraq iştirak edib.

Azərbaycan Ordusu 2018-ci ildən Əfqanıstanda missiyaya töhfəsini artırmaq məqsədilə şəxsi heyətinin sayını 120-yə çatdırıb. Missiyanın müvafiq komandanlıqlarında təmsil olunmaqla yanaşı, Azərbaycan Ordusunun sülhməramlı qüvvələri



Türkiyə hərbçiləri ilə birlikdə Kabil Beynəlxalq Hava Limanının mühafizəsi tapşırığını da icra edib.

Azərbaycan sülhməramlıları təkcə Əfqanıstanda deyil, digər sülhyaratma missiyalarında Vətəni layiqincə təmsil edib, sülhün, qlobal təhlükəsizliyin təminatına töhfələr verib. Beynəlxalq təhlükəsizlik təlimlərində öz bacarıqları və yüksək peşəkarlıqları ilə fərqlənib. Təsadüfi deyil ki, təhlükəsizlik qüvvələrində təmsil olunan hərbi qulluqçular arasında keçirilən döyüş hazırlığı yarışmasında Azərbaycan ABŞ və Kanadadan sonra 3-cü yeri tutub. Həmin vaxt bu hadisə dünya mediasında işıqlandırılmış, ölkəmizin rəhbərliyinə, həmçinin Azərbaycanın Müdafiə Nazirliyinə NATO Komandanlığından minnətdarlıq məktubu gəlmişdi. ABŞ-ın ölkəmizdəki səfirləri dəfələrlə sülhməramlı əsgər və zabitlərimizin nümunəvi xidmətləri barədə ölkə rəhbərliyinə müsbət rəylərini bildiriblər. Ümumilikdə, Azərbaycan sülhməramlılarının faktiki vəzifələri təhlükəsizlik qüvvələrinə təlim keçmək, məsləhətlər vermək, yardım göstərmək, sabitliyi təmin etməkdir.

Azərbaycan hazırda Avropa və Avroatlantik məkanda qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasında NATO ilə birgə işləyir. Ölkəmiz təhlükəsizliyin bölünməzliyi prinsipinə zidd coğrafi və siyasi ayrı-seçkilik olmadan Avropa və yerləşdiyi regionda vahid təhlükəsizlik sisteminin qurulması yükünü bölüşmək əzmindədir. Azərbaycanın NATO ilə ən vacib əməkdaşlıq sahəsi "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsindədir. Sözügedən proqram çərçivəsində Azərbaycan Silahlı Qüvvələrinin zabitləri hər il 500-ə qədər təlim və seminarda iştirak edirlər. Hazırda Azərbaycan Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzinin nəzdində "Sülh Naminə Tərəfdaşlıq" mərkəzi fəaliyyət göstərir. Onu da qeyd edək ki, 2003-cü ildən etibarən NATO Bakıdakı yay məktəbinin maliyyələşdirilməsində iştirak edir. İldən-ilə proqramların əhatə dairəsi genişlənmiş və nəticədə 2005-ci ildə Azərbaycanda NATO-nun Beynəlxalq məktəbi yaradılmışdır.

Azərbaycan dövlətinin artan hərbi qüdrəti sayəsində sülhməramlı bölmələrimizin ən yüksək tələblər səviyyəsində xidmət şəraiti yaradılıb. Hazırda Müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, sülhməramlı bölmələrində də dərs və təlimlərdə fəal iştirak edərək hərbi vərdişlərini daha da təkmilləşdirir. Azərbaycan Silahlı Qüvvələrinin II Qarabağ müharibəsində qazandığı qələbə, ordumuzun, o cümlədən, sülhməramlı şəxsi heyətin döyüş və mənəvi-psixoloji ruhunu daha da artırıb. Sülhməramlı bölmələrə peşəkar hərbçilər cəlb olunub və təlimlərdə onların hazırlıq səviyyəsinin artırılması üçün bütün zəruri şərait yaradılıb. Əsas məqsəd qlobal sülhün və təhlükəsizliyin təmin edilməsi və xarici dövlətlərdə ölkəmizin layiqincə təmsil olunmasıdır. Bu baxımdan, sülhməramlı heyətə yüksək mənəvi dəyərlərimiz, tariximiz, adət-ənənələrimiz aşılanır.

Hazırda Azərbaycan dövləti yerləşdiyi regionda yaratdığı yeni geostrateji və geosiyasi üstünlüklərdən faydalı şəkildə bəhrələnərək milli və dövlət maraqlarına cavab verən beynəlxalq hərbi əməkdaşlığı uğurla davam etdirir. Həqiqətən də, Azərbaycandan neçə min kilometrlərlə uzaq bir məsafədə müstəqil dövlətimizi, doğma ordumuzu təmsil edən əsgər və zabitlərimizin nümunəvi xidmətlərini görmək, inkişaf etmiş ölkələrin bayraqları sırasında üçrəngli dövlət bayrağımızın dalğalandığını seyr etmək böyük fəxr və qürur yaşadır.

*Leyla RƏŞİD,*
*"Xalq qəzeti"*